# Gənclik hər xalqın sabahıdır

***"Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir".***

***Heydər Əliyev.***

1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəxalq konfransda hər il avqustun 12-nin dünyada Gənclər Günü kimi qeyd olunması qərara alınmışdır. Bu əlamətdar gün gənclərə lazımi diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək məqsədi ilə qeyd olunur.

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Çünki ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılı olacaqdır.

1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması, ümummilli liderin 1995-ci ildə irəli sürdüyü Gənclər Forumu ilə bağlı təşəbbüsündən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumlarının keçirilməsi, 1997-ci ildə fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi, beş dövlət Proqramının qəbulu, 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" Fərmanın imzalanması və geniş fəaliyyət proqramının təsdiq edilməsi Heydər Əliyevin gənclərlə böyük qayğısının sübutu idi.

Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti bu gün yeni mərhələyə qədəm qoymuşdur. Prezident İlham Əliyev ulu öndərin gənclər siyasətinə sadiqliyini qəbul etdiyini bütün qərarları ilə təsdiq edir. Müasir dövrdə elm və texnologiyanın sürətli inkişafı Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli təsirlərin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar 2018-ci ildə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənədin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

Bu günkü gənclik Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara önəm verən Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyir. Bu gün ölkəmizdə gənclər yüksək vətənpərvərlik ruhuna malikdir. Bunu gənclərimizin Tovuz hadisələrinə verdiyi adekvat reaksiyasından da müşahidə edə bilərik. Gənclərimiz cəbhədə qızğın döyüşlərin getdiyi vaxt orduya və Ali Baş Komandana dəstək məqsədilə çoxminlik yürüş keçirdi. Könüllü olaraq döyüşmək üçün qeydiyyatdan keçənlərin sayı 55 mindən çoxdur və müraciətlər hələ də davam edir. Hazırda gənclərimizin ən böyük arzusu general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, Mübariz İbrahimov, Fərid Əhmədov kimi qəhrəmanlarımızın yolunun davamçısı və torpaqlarımızı işğaldan azad edənlərin sırasında olmaqdır.

Azərbaycan gəncləri həm də beynəlxalq gənclər hərəkatının tərkib hissəsidir. Onların xarici ölkələrdə təşkilatlanması da uğurla gedir. Azərbaycan gəncliyi bu gün həm də Avropa Gənclər Forumu, Dünya Türk Gənclər Birliyi, GUAM ölkələri Gənclər Forumu, İslam Konfransı Gənclər Forumu, Avropa Tələbələr Forumu, Tələbələrin İqtisadiyyat və Menecment üzrə Beynəlxalq Assosiasiyası, ümumilikdə Avropanın və dünyanın 30-dan çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunur. Bu, böyük nailliyyətdir. Bütün bunlar Azərbaycan gənclərinin sabahına daha böyük inamla baxmağa əsas verir.

Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. Dünyanın hansı bölgəsində yaşamasından asılı olmayaraq hər bir gənc öz həyatını qurarkən ilk növbədə müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir.

**Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Vəndamdan Amerikaya uzanan yol

Ötən il orta məktəbi bitirdikdən sonra ali təhsil üçün imtahan verərək 663 bal toplayan Səidə tələbəlik həyatından əvvəl qatıldığı beynəlxalq proqram çərçivəsində Amerika Birləşmiş Ştatlarına yola düşüb. İndiana ştatında 12-ci sinfi oxumaqla yanaşı, tibb bacısı ixtisası üzrə də təhsil alıb. Bununla bərabər, yaşadığı ştatın klinikalarında könüllü kimi xidmət də göstərib. Lakin bu gənc qız öz işini bununla bitmiş hesab etmir. Vaxtaşırı keçirilən görüşlərdə, tədbirlərdə, xidmət etdiyi könüllü proqramlarında Azərbaycan həqiqətlərini də dilə gətirib, beynəlxalq aləmə çatdırıb.



Səidə Yaşarlı: "Təqdimatlarda, tədbirlərdə ölkəmizin tarixindən, mədəniyyətindən danışır, torpaqlarımızın işğal altında olduğunu vurğulayırdım. Əsasən gənclərlə ünsiyyətdə olurdum. Onların çoxu bu münaqişənin mahiyyətindən xəbərsizdir. Çalışırdım ki, onları bu barədə ətraflı məlumatlandırım. Amerikada olduğum müddətdə onların musiqiləri, yeməkləri - bunlar mənə çox maraqlı gəlirdi. Çalışırdım ki, bu fərqliliyə alışım...".

Təhsil proqramı yekunlaşdıqdan sonra ABŞ-da təhsil alan azərbaycanlı tələbələrlə birgə ötən ay ölkəmizə qayıdan Səidə ali təhsil almaq üçün bu il ölkəmizdə yenidən imtahanlarda iştirak edib. O, artıq birinci mərhələdə kifayət qədər bal toplayıb. İmtahanların ikinci mərhələsində də lazımi balı toplayaraq Tibb Universitetində müalicə ixtisasına yiyələnməyi və insanların sağlamlığının keşiyində durmağı qarşısına məqsəd qoyub.

O, boş vaxtlarında bacı və qardaşına dərslərində kömək edir, ABŞ xatirələrindən danışır. Eyni zamanda, xarici ölkələrdə yaşayan dostları ilə əlaqə yaradaraq Azərbaycan həqiqətlərini onların diqqətinə çatdırır.

Səidə qarşıdakı illərdə təhsilini xaricdə davam etdirməklə Azərbaycan həqiqətlərini daha geniş coğrafiyada yaymağı düşünür.

Qeyd edək ki, ixtisasca ingilis dili müəllimi olan Səidə Yaşarlının anası Mədinə Qasımova da bir neçə il əvvəl Təhsil Nazirliyinin xətti ilə ABŞ-da mübadilə proqramında iştirak edib.

*"Azərbaycan" qəzeti,*
*19 avqust 2020-ci il.*

# Arzular ünvansızdır

Mən Hüseynova Aytən 21 noyabr 1994-cü ildə Qəbələ rayonunda anadan olmuşam. Qəbələ şəhər 3 saylı orta məktəbi bitirmişəm. 2012-ci ildə Bakı Slavyan Universitetinin "İbtidai sinif müəllimliyi" ixtisasına qəbul olundum. Yalnız bu naliyyəti əziyyətimin bəhrəsi olaraq görə bilmirdim. Çünki arzum "İngilis dili filologiyası" və ya "Tərcümə" ixtisasları idi. Mən 1 il daha hazırlaşıb növbəti il imtahan vermək istəsəm də valideynlərimin təkidi ilə qəbul olduğum ixtisası oxumağa qərar verdim. Universitet illərində ingilis dilini inkişaf etdirməyi qarşıma məqsəd qoydum. Ikinci kursdan başlayaraq repetitorluq fəaliyyəti ilə məşğul olmağa başladım. Çünki öz ayaqlarım üstə durmağı öyrənməli idim. Beləliklə ailəmdən maddi asılılığımı tamamilə yox etdim. Universiteti " Fərqlənmə" ilə bitirdim. Elə həmin il öz ixtisasım üzrə magistraturaya qəbul oldum. Bununla öz üzərimdə işləmək üçün 2 il daha qazandım. İngilis dilində artıq sərbəst danışırdım. Mən hər zaman ailəmə xaricdə təhsil almaq istədiyimi deyəndə buna razı olmadıqlarını birbaşa deməsələr də mən bunu aydın şəkildə görə bilirdim. Magistraturanı bitirdikdən sonra mən 1 il müddətində Bakı şəhərində 150 saylı tam orta məktəbdə ibtidai sinif müəllimi işlədim. Bu il ərzində mən İELTS imtahanına hazırlaşmağa başladım. Məqsədim Avropa ölkələrindən birində təhsil almaq idi. Amma bu ərəfələrdə qarşıma Çin universitetlərindən birində "Azərbaycan dili müəllimi" vakansiyası çıxdı. Bəxtimi sınamaq istədim. Və bu vakansiyaya mən də CV göndərərək namizədliyimi verdim. Növbəti mərhələdə məndən 5 dəqiqəlik video-dərs tələb olundu. Mənə video-dərsin bəyənildiyi deyildi və dəvət məktubu göndərildi.

Çin mənim ilk xaric təcrübəm idi. Düşünürəm ki bu qərarı vermək üçün müəyyən qədər iradə və mənəvi olaraq güclü olmaq lazımdır. Ilk günlərdə mədəniyyətlərimizin tamamilə fərqli olduğunu düşünürdüm. Ətrafımda danışılan heç nəyi anlamamağım bir növ cəmiyyətdən təcrid olunduğumu hiss etdirirdi. Və bu mənim növbəti məqsədimi formalaşdırdı: çin dilini öyrənəcəyimə qərar verdim. 10 ay ərzində mən baza Çin dilini öyrəndim. Mənə tələbələrim və gündəlik həyatda rastlaşdığım situasiyalar kömək oldu. Artıq məişət danışığını 30% anlayıram.

Azərbaycan dilini tədris etdiyim Universitet Hebei əyalətinin paytaxtı olan Shijiazhuang (Şicacuan) şəhərində yerləşir. Universitetdə hər fakultədə 2 xarici dil tədris olunur: ingilis dili və ikinci xarici dil. Universitetdə bəzi Avropa, Afrika və Asiya ölkələrinin dilləri ikinci xarici dil kimi tədris olunur. Mənə tez-tez sual verilir ki, Çində Azərbaycan dilinə maraq və tələbat necə yaranıb? Çin Xalq Respublikasının sədri Si Cinpin bir neçə il əvvəl qədim İpək yolu üzərində yerləşən ölkələr ilə əlaqələrin müxtəlif sahələrdə genişləndirilməsini nəzərdə tutan "bir kəmər bir yol" təşəbüsünü irəli sürüb. Həmin təşəbbüs çərçivəsində ölkənin müxtəlif qurumlarına İpək yolu dövlətləri ilə əlaqələrin daha da dərinləşməsi istiqamətində bir sıra işlər görülməsi barədə tapşırıq verilib. Hebey Xarici Dillər Universitetində Azərbaycan dilinin tədrisinin təşkili də bu istiqamətdə atılan addımdır. Buna əlavə olaraq bildirmək istəyirəm ki, Pekin Xarici Dillər Universitetində Azərbaycan dili kafedrası da fəaliyyət göstərir.

Mənim tələbələrim 1-ci kurs tələbələri idilər. Azərbaycanı bəzi tələbələrim tanıyırdılar. Öz növbəmdə mən də dərs planına uyğun olaraq ölkəmiz haqqında məlumatlandırıcı videoçarxlar və prezentasiyalar hazırlayırdım. Bu materiallarin məzmunu tariximizi, musiqimizi,adət ənənələrimizi, mətbəximizi, gəzib görməli yerlərimizi əks etdirirdi. Mənim üçün qürürverici hal idi ki, dərs ilinin sonunda tələbələrim Azərbaycana gəlib mədəniyyətimizlə yaxından tanış olmağı artıq qarşılarına məqsəd qoymuşdular.

Çox təəssüf hissi ilə qeyd edim ki, tədris ilinin ikinci yarısı pandemiyanın geniş miqyasla yayıldığı vaxta təsadüf etdi. Bu ərəfələrdə mən Çinin cənubunda yerləşən Shenzhen (Şencen) şəhərində idim. Yanvar ayının sonundan etibarən mart ayının əvvəllərinə qədər virusun yayılmasının qarşısını almaq məqsədi ilə çox ciddi tədbirlər görülürdü. Ölkə ərazisində yalnız supermarket və meyvə-tərəvəz mağazaları fəaliyyət göstərirdi. Olduğum şəhərdə sərt karantin rejimi tətbiq olunmasa da virusun intensiv yayıldığı şəhərlərdə insanlar gündə 2 saatdan başlayaraq 3-4 saat müddətində icazə verilməklə yaşayış yerlərini tərk edə bilərdilər. Ancaq hər bir halda gigiyena qaydalarına ciddi şəkildə əməl olunurdu. Nəinki qapalı məkanlarda, hətta açıq havada da tibbi maskasız hərəkət qadağan edilmişdi. Nəzarət çox güclü idi və insanlar da tətbiq olunmuş qaydalara məsuliyyətlə yanaşırdılar. Mart ayının ortalarından başlayaraq isə virusun yayılma tendendensiyasının azaldığı bölgələrdə qaydalar yumşaldılmağa başlandı və tədricən yumşaldılmalar digər bölgələrdə də tətbiq olunurdu. Məlumdur ki, Çin pandemiyaya qalib gəlmiş ölkələr sırasındadır. Artıq may ayının ortalarında universitetlər istisna olmaqla, demək olar ki, ölkə ərazisində bütün iş yerləri açılmışdı. Bura məktəblər də daxil idi. Turistik bölgələrdə istirahət mərkəzləri əvvəlki qaydada xidmət göstərirdi. Bütün bunlara baxmayaraq virusun yayılmaması üçün qapalı məkanlarda tibbi maskalardan istifadə olunmasını nəzərdə tutan qanun hələ də qüvvədə qalır. Qapalı məkanlara girişdə hər bir şəxsin sağlamlıq durumu telefonda müəyyən olunmuş mobil tətbiq vasitəsi ilə sağlamlıq QR kodu daxil edilərək yoxlanılır. Qeyd etmək istəyirəm ki, pandemiyanın başlandığı müddətdən etibarən Azərbaycananın Çin Xalq Respublikasındaki səfirliyinin əməkdaşları Azərbaycan vətəndaşları ilə mütəmadi olaraq əlaqə saxlayır, sağlamlıq durumumuzla maraqlanır və ehtiyac olduğu təqdirdə kömək təklif edirdilər.

**Aytən HÜSEYNOVA,**
**Qəbələ şəhəri.**